# Bahar təravətli nəğmələri və rəqsləri ilə milli dəyərlərimizi yaşadan kollektiv





**Astara rayonunun Kakalos kənd sakini, uzun illər mədəniyyət sahəsində çalışan Fərbiyyə Şabanova əkin-biçininə gedən kəndlilərin dilində dolaşan əmək nəğmələrini və rəqsləri yaşatmaq üçün 1964-cü ildə bir qrup yaradır və bu qrupun adını "Əvəsor" adlandırır. "Əvəsor" talış dilində "Təzə il", "Novbahar" mənasını daşıyır.**





AZƏRTAC xəbər verir ki, ilk illərdə heyəti üç nəfərdən ibarət olan kollektiv elə həmin vaxtdan kənd-kənd oba-oba gəzərək şifahi xalq nümunələrini təbliğ edir.

Fəxri mədəniyyət işçisi, "Tərəqqi" medallı Fərbiyyə Şabanovanın təşəbbüsü ilə yaradılan "Əvəsor" folklor kollektivi hazırda 30 nəfəri özündə birləşdirir. Kollektiv üzvlərinin ən kiçiyinin 5, ən böyüyünün isə 40-dan artıq yaşı var.

"Əvəsor"un yaradıcısı və rəhbəri F.Şabanova deyir ki, repertuarlarının əsasını anasının sinədəftər bayatıları, nəğmələri təşkil edir. Hazırda kollektivin repertuarında "Talış toyu" kompozisiyası, "Biçində", "Qardaş, toyun mübarək", "Naz etmə" rəqsləri, "Laylay", "Elçilik", "Xınayaxdı" və sair folklor nümunələri var.

"Qrup yaranan vaxtda rəhmətlik anamdan öyrəndiyim talış və Azərbaycan xalq mahnılarını, bayatıları, əmək nəğmələrini və s. kollektivin repertuarına daxil etdim. Bundan sonra kollektiv ölkəmizin istənilən yerində təşkil edilən müxtəlif festivallarda iştirak etməyə başlayıb. Müstəqillik qazanandan sonra isə, 1993-1995-ci illərdə iki dəfə Mədəniyyət Nazirliyi tərəfindən qardaş Türkiyədə keçirilən festivala göndərildik. Orada uğurlu çıxışlarımıza görə bizə müxtəlif hədiyyələr və diplomlar təqdim edildi. Kollektivimizin üzvləri 1988-ci ildə Rumıniyada, 1991-ci ildə Dağıstanda keçirilən folklor festivallarında uğurlu çıxışları ilə tamaşaçıların rəğbətini qazanıblar. Altmış ildir ki, bu qrupu yaşadırıq. İndi də tədbirlərə, festivallara dəvətlər alırıq. Nə qədər ömrümüz var bu kollektivi yaşadacağıq", - deyə 84 yaşlı Fərbiyyə xanım bildirir.

Mədəniyyət Nazirliyinin 2000-ci il 12 iyul tarixli qərarına əsasən "Əvəsor" folklor kollektivinə "Xalq kollektivi" adı verilib.

2014-cü ildə 50 illiyini qeyd edən "Əvəsor" folklor xalq kollektivi təkcə rayonda deyil, respublikada keçirilən tədbirlərdə, beynəlxalq festivallarda da uğurla çıxış edir.

"Əvəsor" folklor xalq kollektivi nəzdində "Nəcib qızlar klubu" da fəaliyyət göstərir.

Qeyd edək ki, kollektiv haqqında sənədli film də çəkilib.